**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ**

**Gəncə Dövlət Universitetinin Elmi Şurasının 19.01.2023-cü**

**il tarixli (protokol № 04) Qərarı və rektorluğun**

**30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə təsdiq edilmişdir**

**GDU-nun rektoru ______________ prof. Y.Ə.YUSİBOV**

**«30» ___01___ 2023-cü il**

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ

# TƏLİM VƏ TƏDRİS SİYASƏTİ

**GƏNCƏ - 2023**

Gəncə Dövlət Universitetinin (GDU) mövcud "Strateji Plan"a uyğun olaraq təhsil və təlim proseslərinə yanaşması tələbə mərkəzli təhsil, elmi araşdırma, cəmiyyətə xidmət və beynəlmiləlləşmə anlayışına əsaslanır.

**FƏLSƏFƏ**

GDU-da tələbələrin maraq və ehtiyaclarını nəzərə alan, onları tədris prosesinə cəlb edən, problemlərin həlli üzərində düşünməyə vadar edən "proqressiv fəlsəfə" qəbul edilir. Universitet həmçinin təhsilə sosial inkişafın mərkəzi kimi baxır və professor-müəllim heyətinin səmərəli olmasını təmin etməyi hədəfləyir. Universitet təhsil proseslərini sevgi və dözümlülük üzərində əsaslandıran və cins, inanc və fiziki qüsur kimi fərdi xüsusiyyətlərə hörmətlə yanaşan "yenidənqurma fəlsəfəsini" qəbul edir.

**MİSSİYA**

- Peşəsinin tələb etdiyi səriştələrə malik, elmi düşünən, məhsuldar, tənqidi düşünən, həll yönümlü, özünü yeniləyən, effektiv ünsiyyət quran, təbii və sosial problemlərə həssaslıqla yanaşan, etik davranış qaydalarına yiyələnmiş fərdləri **"məzun etməy"**i hədəfləyir.
- Tələbələrinə müxtəlif fənləri tanımaq imkanı verən, çevik və elmi düşünən, sosial inkişafa uyğun hərəkət edən, fərdi fərqliliklərə önəm verən, yüksək səviyyəli bacarıqlara malik **"tədris proqramı"** həyata keçirməyi hədəfləyir.
- Tələbələrin dərk etmə, problem həll etmə, tənqidi düşünmə və yaradıcılıq bacarıqlarını inkişaf etdirən tələbə yönümlü yanaşmanı mənimsəyir. İxtisas sahəsinin tələblərinə çatmağa imkan verən texnologiya əsaslı **"tədris metodları"**ndan istifadəni təşviq edir.
- Universitet daxilindəki hər bir mühiti məlumat əldə etmək üçün **"öyrənmə mühiti"** olaraq istifadə etməyi qəbul edir, qəbul etdiyi təhsil fəlsəfəsi və öyrənmə-öyrətmə anlayışı ilə uyğunlaşdırmağa çalışır, hər bir tələbə üçün əlçatanlığı təmin etməyi qarşısına məqsəd qoyur.

- **"Tələbə uğuru"**nu dərslərdə əldə edilən koqnitiv, təsiredici və sosial səriştələrin təbiət və cəmiyyətin xeyrinə istifadə edilməsini təmin edən proseslər məcmusu olaraq qəbul edir. Bu məqsədlə öyrənmə məsuliyyətini üzərinə götürən və özünü təhsil prosesinin bir hissəsi kimi görən tələbə profili yaratmağı qarşısına məqsəd qoyur.
- Tələbələrə rəhbərlik edən, öyrənməni asanlaşdıran, araşdıran və öyrəndiklərini paylaşan, ömürboyu öyrənməyə inanan, özünü təkmilləşdirən, etik davranan, tədris proseslərinin tələb etdiyi bilik və bacarıqlara malik olan **"təhsilverən"**ə malik olmağı hədəfləyir.
- Mövcud olan təhsil proqramlarının beynəlxalq anlayış və yanaşmalara uyğun olmasını, akkreditasiya prosesini, ikili diplom proqramlarını, tələbə və müəllim mübadiləsini, beynəlxalq tələbələrin sayını artırmağı hədəfləyir və **"beynəlmiləlləşmə"**yə xüsusi önəm verir.
- Dərs zamanı qazanılan müvəffəqiyyətin müəyyən edilməsində klassik ölçmə vasitələrinə əlavə olaraq bilik və bacarıqların gündəlik həyatımızda istifadəsini tələb edən qabiliyyət (məs: şəkil çəkmək, heykəl düzəltmək və s.), layihə, təqdimat və tədqiqat hesabatı kimi yüksək səviyyəli təlimdən istifadəni tələb edən **"ölçmə və qiymətləndirmə"** üsullarına üstünlük verir.
- Universitet PİNT modeli (planlaşdırma, icra etmə, nəzarət və təkmilləşdirmə) ilə yanaşı keyfiyyət təminatı yanaşmasından da istifadə edərək öyrənmə və öyrətmə prosesini idarə edir. Bu çərçivədə, universitetdə təhsil alan tələbələrin proqramın təlim nəticələrinə çatma səviyyəsinə, onların vaxtında məzun olmasına, məşğulluğuna (əmək bazarında yer almasına) və məmnunluq səviyyəsinə **"nəzarət etmək və təkmilləşdirmək"** üçün araşdırmalar aparır və bu araşdırmalara uyğun qərarlar qəbul edir.

**Qeyd:** GDU-nun rektorluğu "Təlim və Tədris Siyasəti"ni hər il nəzərdən keçirir və ehtiyac yarandığı halda yeniləyir.

**MƏQSƏDLƏR**

1. Təhsildə yeni texnologiyaların geniş tətbiqi üçün universitet infrastrukturunu inkişaf etdirmək, distant təhsil proqramlarını yaratmaq və ömürboyu təhsili gücləndirmək.

2. Dəyişən və daim inkişaf edən dünyamızın şərtlərinə uyğunlaşmaq qabiliyyətinə malik olan, sahibkarlıq və biznes təcrübəsinə sahib olan məzunların sayını artırmaq və tətbiqi təhsil modellərini gücləndirmək.

3. Tələbələrin əldə etdiyi karyera bacarıqlarını, peşəkarlıq və mentorluq təcrübələrini artırmaq.

4. Beynəlxalq tələbələrin, beynəlxalq mübadilə proqramlarından faydalanan tələbə və müəllim heyətinin, ingilis dili kurs və proqramlarının, ikili diplomların, MBA proqramının, xarici dildə tədris aparılan ixtisasların sayını artırmaq.

5. Professor-müəllim heyətinin sayını və səlahiyyətlərini təkmilləşdirməklə təlimçi, akademik məsləhətçi (tyutor) və mentor fəaliyyətini gücləndirmək.

6. Qabiliyyətli və bacarıqlı tələbələri universitetdə magistratura və doktorantura təhsillərini davam etdirməsi üçün həvəsləndirmək və dəstəkləmək.